# İlham Nəzərov –

## Azərbaycan vokal ifaçılıq sənətində yeni mərhələ...

**Günel Bəkirova**
Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının əməkdaşı
**E-mail:** gunel.bakirova.88@mail.ru

**İyirmi il...** İyirmi il bir ömrə bərabərdir. Bəzən haqlı olaraq deyirlər ki, yaradıcı insanların iki həyatı olur. İkincisi, onların sənət yoludur. İyirmi illik sənət yolu dedikdə peşəkarlıq, sənətkarlıqla yanaşı, öz peşəsini dərin məhəbbətlə sevən, yaradıcılığı ilə musiqi mədəniyyətimizi zənginləşdirən bir şəxsiyyət gözümüzün önündə canlanır.

Azərbaycan Respublikasının Əməkdar artisti, Prezident təqaüdçüsü, bir çox nüfuzlu beynəlxalq müsabiqələrin qalibi İlham Nəzərov XXI əsr müasir Azərbaycan vokal ifaçılıq sənətinin ən parlaq nümayəndələrindən biridir. Zəngin yaradıcılığa malik müğənninin fəaliyyəti musiqi mədəniyyətimizdə yeni bir səhifəni təşkil edir. Yaradıcılığının istiqamətləri və vokal ifaçılıq xüsusiyyətləri onu zəngin sənət yoluna malik musiqiçi kimi qiymətləndirməyimizə imkan verir. Bəs bu mərhələ və istiqamət nədən ibarətdir? İfaçını Azərbaycan vokal ifaçılıq sənətində unikallaşdıran səbəb hansılardır? Suallara cavab tapmaq üçün sənətçinin yaradıcılığına diqqət yetirmək kifayətdir. İlham Nəzərov geniş yaradıcılıq ampulasına malik musiqiçidir və onu bir çox aspektlərdən dəyərləndirmək lazımdır:

1) Azərbaycan vokal incəsənəti tarixində kontratenor səs tembrinə malik ilk opera ifaçısıdır;

2) Müğənni eyni zamanda bariton səs tembri ilə müvəffəqiyyətlə çıxış edir.

Hər iki səs tembrində böyük peşəkarlığa malik olmaq təkcə Azərbaycanda deyil, dünya musiqi mədəniyyəti tarixində nadir rast gəlinən haldır;

3) Aktyorluq qabiliyyəti;

4) Pedaqoji fəaliyyəti;

5) Elmi yaradıcılığı.

İlham Nəzərovun vokal ifaçılıq fəaliyyətinin istiqamətlərindən danışarkən həm konsert, həm də opera ifaçılığı sahəsində parlaq yaradıcılıq yoluna malikliyini qeyd etməliyik. Peşəkar şəkildə musiqili səhnə fəaliyyəti 2000-ci ildən bariton kimi başlamış və bu günə qədər hər iki səs tembrində dünyanın bir sıra opera səhnələrinə 49 obraz yaratmaqla Azərbaycan vokal ifaçılıq sənətində ən çox rol alan ifaçı kimi tarixə düşmüşdür.

Həmçinin ifaçının iyirmi illik yaradıcılığını iki mərhələdə dəyərləndirmək mümkündür: 2000–2011-ci il və 2011-ci ildən bu günə kimi olan yaradıcılığı.

2000-ci ildən 2011-ci ilə qədər olan dövr musiqiçinin fəaliyyətinin birinci mərhələsidir. Onun bu illərdəki fəaliyyətini bədii dillə ifadə etməyə çalışsaq, zirvəyə doğru gedən yolun ilk mərhələsi kimi də qiymətləndirilə bilər. İlham Nəzərovun uğurlarının arxasında musiqiçinin istedadı ilə bərabər, əzmkarlığı, yorulmaq bilmədən çalışması, məqsədyönlülüyü, zəhmətkeşliyi və mərdliklə bütün çətinliklərə sinə gərməsi dayanır. Bütün bu keyfiyyətlər ifaçının sənət uğurlarının meyarıdır. Bu mərhələdə canlandırdığı obrazlar dönüş nöqtəsi kimi onun sənət yolunun istiqamətini müəyyənləşdirmişdir.







2010-cu ildən İtaliyada, dünyanın ən nüfuzlu akademiyalarından biri olan Ozimo İncəsənət Akademiyasında təhsil alması xüsusi əhəmiyyətli hadisə kimi vurğulamaq lazımdır. Məhz İtaliya ifaçılıq məktəbi İlham Nəzərovu kontratenor kimi yetişdirdi. 2011-ci ildən onun bu səs tembri ilə yaradıcılığı Azərbaycan vokal ifaçılıq sənətində yeni bir mərhələnin başlanğıcıdır.

Ümumiyyətlə, ifaçılıq ən mürəkkəb bədii yaradıcılıq prosesidir. Musiqiçi ifa etdiyi əsərə yeni həyat verməklə bəstəkarla bir mövqedən çıxış edir. Bəzən hər hansı bir əsərin gələcək taleyi, onu dinləyiciyə sevdirilməsi elə təfsirçidən asılıdır. Bu səbəblə ifaçının mənəvi zənginliyinin dərinliyi, istedadının hərtərəfliliyi ifadə əks olunur.

İlham Nəzərov parlaq və yaradıcı naturaya malik musiqiçidir. Belə ki, o, janrından asılı olmayaraq, müraciət etdiyi hər bir əsəri yeni məna çalarları ilə zənginləşdirir və onlara yeni həyat bəxş edir. Bu, janrından asılı olmayaraq, müraciət etdiyi istənilən əsərdə özünü göstərir. Sanki yaratmaq və daim yeniliklərə can atmaq, xüsusilə böyük peşəkarlıq və sənətkarlıq keyfiyyətləri İlham Nəzərov fəaliyyətinin spesifik cəhətləridir. Onun bütün yaradıcılığı istiqamətlərində müşahidə edilən ən əsas cizgilərdəndir.

İlham Nəzərovun səhnə fəaliyyəti onun musiqi yaradıcılığının önəmli hissəsini təşkil edir. Musiqiçinin bu istiqamətdə də bir sıra yeniliklərə imza atdığını görürük. Belə ki, kontratenor kimi V.A.Motsartın "Fiqaronun toyu" operasından Kerubino Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində, P.İ.Çaykovskinin "Qaratoxmaq qadın" operasından Prilepa obrazı dünya musiqi tarixində bir ilkdir. Onun opera səhnə fəaliyyətinin xüsusiyyətləri digər məqalədə ətraflı şəkildə işıqlandırılmışdır.

İlham Nəzərovun vokal ifaçılıq xüsusiyyətləri, imkanları Azərbaycan və eyni zamanda avropalı bəstəkarların daim diqqət mərkəzindədir. Belə ki, ifaçının səsinin imkanlarından irəli gələrək ona bir sıra əsərlər, o cümlədən fortepiano və səs üçün, müxtəlif tərkibli orkestr və kontratenor üçün simfonik əsərlər, opera və kantata bəstələnmişdir.

1) Fabrizio Festa – "Il volo dell'Aquila"

2) Kəmalə Əlizadə – "O Patria Mia". Kontratenor və orkestr üçün

3) Stefano Muskaritolo – "Pero' c'Amore no si po' vedere". Kontratenor, klassik və milli alətlər üçün

4) Stefano Muskaritolo – "Luna, Lussuria e Velocita". Bas-kontratenor və elektron musiqi alətləri üçün

5) Stefano Muskaritolo – "A Dialogue with Fuzuli". Soprano, bariton və orkestr üçün

6) Rəna Qədimova – "İnsan". Bariton-kontratenor və fortepiano üçün. Sözləri H.Cavidindir.

7) Rəna Qədimova – "Bilmirəm". Bariton-kontratenor və fortepiano üçün vokal silsilə I dəftər

8) V.Korvino – "Opera live cooking" operası Narciso obrazı

Sadaladığımız bütün əsərlər ifaçı tərəfindən Bakıda və Avropada ilk dəfə olaraq səslənmişdir.

İlham Nəzərov, həmçinin geniş, müxtəlif janrları və üslubları əhatə edən repertuara malikdir. Belə ki, repertuarına Barokko dövrünün musiqisindən modern musiqiyə qədər əsərlər, həmçinin Azərbaycan xalq mahnıları və bəstəkarların əsərləri daxildir. Müğənni həm soprano, messo-soprano, alt, kontralto, bariton və həm də bas partiyalarını ifa edir ki, bu da Azərbaycan vokal ifaçılığı sənətində bir ilkdir. Bu, ilk növbədə, İ.Nəzərovun sənətkarlığının göstəricisidir.

Müğənninin səs imkanlarından bəhs etdikdə, ilk növbədə, diapazon həcmi, səsinin rəng çalarları, səs aparatının işləmə texnikası və s. nəzərdə tutulur. Müğənninin şəxsən iştirakı ilə aparılan müşahidələr zamanı səs diapazonu 5 oktava həcmində müəyyənləşdirilmişdir. İlham Nəzərovun geniş ifaçılıq imkanları ona müxtəlif tessituralı partiyaları ifa imkanı verir.







Göründüyü kimi, musiqiçinin səs diapazonu kontr oktavadan üçüncü oktavanın e (mi) səsinə qədər intervalı əhatə edir. Hər bir müğənninin səs tembrinin xarakterik xüsusiyyətlərinə uyğun keçid səsləri vardır. Səs diapazonunda keçid səsləri, əsasən, 4 səsdə özünü göstərir: kiçik və birinci oktava arasında yerləşir – a-h-c1-d1. Məhz bu an səs aparatının vəziyyətinin dəyişilməsi prosesi baş verir. İfaçılıq ustalığı baxımından həssas sayılan səslər keçid səsləridir.

İlham Nəzərov yaradıcılığına böyük diqqətlə yanaşır. Belə ki, həkim nəzarəti altında səs aparatının vəziyyəti, səs büküşlərinin vi-



zual görüntüsü, ifaçının səs tellərinin ölçüsü, səsinin gücü, tezliyi və s. müəyyən edilməsi üçün müayinələr aparılmışdır. Səs tembrinin xüsusiyyətlərinin daha dərindən araşdırılması ifaçının həyat və yaradıcılığından bəhs edən və özünün də müəllifi olduğu "Baritondan kontratenora..." adlı kitabında əksini tapmışdır.

İlham Nəzərovun yaradıcılığının digər bir əhəmiyyətli istiqaməti onun konsert fəaliyyətidir. Təkcə respublikamızda deyil, dünyanın bir çox ölkələrində, o cümlədən, Avstriya, İtaliya, Rusiya, Çexiya, Fransa, İspaniya, Türkiyə, Yunanıstan, Almaniya, Norveç, İsveçrə, Böyük Britaniya, İsveç, Finlandiya, Qazaxıstan, Belarus, Ukrayna və digər ölkələrin məşhur salonlarında konsert proqramları ilə çıxış edir və bir sıra beynəlxalq musiqi festivallarında Vətənimizi layiqincə təmsil edir.

İtaliya və Almaniyada keçirilən beynəlxalq müsabiqədə onun dünya kontratenorları arasında ikinciliyi, Almaniyada barokko musiqisi üzrə müsabiqədə və M.Maqomayev adına Vokalçıların Beynəlxalq müsabiqəsində birinci yeri qazanması, "Florida keys" (ABŞ) müsabiqəsində Qrand-Pri mükafatını əldə etməsi, "Ən yaxşı vokal müəllimi" (ABŞ) müsabiqəsində birinci, "Böyük opera" telelayihəsində və "Astananın səsi" müsabiqəsində üçüncü yerə layiq görülməsi və onlarla bu kimi qəlibiyyətlər müğənninin istedadına verilən böyük qiymətdir.

İlham Nəzərovun yaradıcılığının digər bir xüsusiyyəti onun Barokko musiqisinin Azərbaycanda təbliğatçısı olmasıdır. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti Fərhad Bədəlbəyli müsahibələrimizdə musiqiçini Barokko ustası adlandırır. Həqiqətən də, ifaçı konsertlərində həmin dövrün bəstəkarlarının əsərlərinə böyük yer verir.

İlham Nəzərovun yaradıcılığını səciyyələndirərkən onu təkcə ifaçı-müğənni kimi dəyərləndirmək birtərəfli baxış kimi qiymətləndirilə bilər. İstedad fenomeninin digər tərəfi ona təbiətdən bəxş olunan aktyorluğudur və bu keyfiyyət özünü yüksək formada göstərərək yaradıcılığının ayrılmaz bir hissəsini təşkil edir.

Bildiyimiz kimi, ifaçı Azərbaycan və dünyanın bir çox opera tamaşasında 49 müxtəlif rolları canlandırıb. Ancaq musiqiçinin aktyorluq qabiliyyətindən söz edərkən, yalnız opera teatrındakı fəaliyyəti ilə əlaqələndirmək fəaliyyətini məhdudlaşdırmaq və çərçivəyə salmaq deməkdir. İstənilən çıxışı zamanı sənətkarın işə yaradıcı yanaşmasını müşahidə etmək olur – o, həm böyük opera səhnəsində oynadığı xarakterlərin, həm də hər hansı səhnədə ifa etdiyi kiçik bir əsərin məzmun və bədii formasını peşəkarlıqla modelləşdirməyə nail olur. Məhz belə məqamlar istedadlı ifaçının təbiətinin əsas xəttini müəyyən edir. Həmçinin bu cəhət onun səhnəyə olan böyük məhəbbətindən irəli gəlir.

İ.Nəzərovun yaradıcılığına diqqət etsək görərik ki, bütün janrlardakı fəaliyyətində səhnə plastikası ifanın bir parçası rolunda çıxış edir və obrazın bütövlüyünə xidmət göstərir. Qeyd etdiyimiz kimi, obrazın miqyasından asılı olmayaraq, ona eyni dərəcədə münasibətdədir.

İfaçı həmişə canlandırdığı obrazlarda qəhrəmanın psixoloji vəziyyətini öz daxili aləminin süzgəcindən keçirir, onları özününküləşdirməyi bacarır. Canlandırdığı hər hansı obrazı izlədiyimiz zaman görürük ki, onlar öz xüsusiyyətlərinə görə bir-birini təkrarlamır, bu obrazlar fərqlidir və onların hər birinin müstəqil həyatı var. Burada aktyorluq ustalığı və vokal texnikası bir-birinə tabe olaraq vəhdət təşkil edir və gözəl sənət nümunələrinin yaranmasına gətirib çıxarır.

Pedaqoji fəaliyyət İ.Nəzərovun yaradıcılığının ayrılmaz hissəsini təşkil edir. Müəllim peşəsi ifaçının şəxsiyyətini tamamilə başqa aspektdən dəyərləndirməyə və yeni keyfiyyətləri üzə çıxarmağa imkan verir.

İ.Nəzərovun müəllim kimi fəaliyyəti geniş musiqiçi auditoriyasını əhatə edir. Həm uşaq musiqi məktəbində, həm də Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında vokal ixtisasını tədris edir. Göründüyü kimi, onun fəaliyyəti bütün yaş kateqoriyalarını əhatə edir: azyaşlı uşaqlardan başlamış professional təhsil alan ali məktəb tələbələrinə və hətta vokal sənətinə böyük marağı olan ortayaşlı insanlara qədər...





Sinifdə müəllim-şagird mövqeyindən danışarkən, ilk növbədə, ifaçı şagirdə peşəkar vokal-ifaçılıq bilikləri ilə yanaşı, özünə inam, azad düşünmə qabiliyyəti, müstəqil qiymətləndirmə bacarığı, ötürülən biliyi istənilən zaman bacarığa çevirmə, səhnədə özünü aparmaq və səhnəni idarə etmək vərdişləri aşılayır.

İstənilən sahədə olduğu kimi, vokal ifaçılığı sahəsində də müəllim və onun sinifdə metodiki iş prinsipi vacib amildir. İ.Nəzərovun pedaqoji prinsiplərinin ümumi istiqamətlərindən danışsaq, bir qayda olaraq, İtaliya oxuma məktəbinin ənənələrinə dayaqlandığını qeyd edə bilərik.

İ.Nəzərov pedaqoji fəaliyyətlə həm praktiki, həm də nəzəri məşğul olur. Elmi tərəfi tələbələrinin düzgün repertuar seçimi ilə bağlı tövsiyələri təşkil edir. Gənc olmasına baxmayaraq, artıq iki metodik tövsiyənin müəllifidir.

Bunlardan birincisi 2015-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mədəniyyətşünaslıq üzrə elmi metodik mərkəzinin nəşr etdirdiyi "Uşaq musiqi və incəsənət məktəbləri üçün proqram" (vokal ifaçılığı üzrə) və ikincisi isə 2019-cu ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının estrada ifaçılığı fakültəsində bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulan "Estrada sənəti" üzrə proqramdır. Proqram tələbələrin təhsil prinsipinin səmərəliliyi üçün işlənib hazırlanıb və estrada fakültəsindən ötrü ilk sayılır.

İfaçı, həmçinin elmi fəaliyyətlə də məşğuldur. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının doktorantı kimi o, beynəlxalq və respublika konfranslarında uğurla iştirak edir və məqalələri bir sıra jurnallarda dərc olunur. Həmçinin görkəmli müğənnimiz Bülbülün həyat və yaradıcılığı ilə bağlı araşdırmaları və kontratenor səs tembri haqqında dərc olunan məqalələri böyük maraq kəsb edir.



Özünə qarşı tələbkar, məsuliyyətli, zəhmətkeş, əməksevərliyi ilə seçilən fitri istedad sahibi İ.Nəzərov yorulmaq bilmədən çalışır. Vokal repertuarını zənginləşdirərək peşəkarlıq səviyyəsini daha da yüksəldir. Sənətin yüksək zirvələrinə aparan mürəkkəb, geniş və çoxşaxəli yaradıcılıq fəaliyyəti ilə musiqi mədəniyyətimizi daha da zənginləşdirir.

Beləliklə, iyirmi illik sənət yoluna nəzər yetirdikdə, İlham Nəzərov və vokal ifaçılıq sənəti kimi məfhumlar harmonik şəkildə bir-biri ilə üzvləşərək müğənninin təqdimat vasitəsinə çevrilir. İlham Nəzərov və vokal ifaçılıq sənəti bir-birinə sıx bağlıdır. Onlar ayrı-ayrılıqda mövcud ola bilməz. Müasir Azərbaycan vokal ifaçılıq sənətində müstəsna xidmətləri olan müğənninin yaradıcılığı musiqi mədəniyyətimizin inkişafına bir töhfədir!

**Ədəbiyyat:**

1. Əliyeva Ü. Свадебный переполох //«Эхо» qəzeti, 2014.
2. Tanınmış vokalçı Rusiyanın «Böyük opera» layihəsində //«Mədəniyyət» qəzeti, 2017-ci il 24 oktyabr.
3. Ислам А. Фархад Бадалбейли: «Это огромный успех национальной вокальной школы //«Эхо» qəzeti, 2017.
4. Касимова Л. Жизнь коротка, искусство вечно! //www.ann.az – 2014-cü il 29 sentyabr.
5. http://www.regione.marche.it/News-ed-Eventi/Post/14653/Una-intera-piazza-a-Jesi-accoglie-la-festa-teatrale-di-Franco-Dragone-per-l-inaugurazione-del-XVI-Festival-Pergolesi-Spontini
6. Азербайджанский мугам привел в восторг жюри престижного конкурса // https://yenicag.ru/azerbaydzhanskiy-mugam-privel-v-vosto/ - 2017.- 30 noyabr
7. https://moscow-baku.ru/news/culture/pevets_uchastnik_proekta_bolshaya_opera_ilkham_nazarov_blagodarya_teleproektu_menya_stali_uznavat_v_/
8. https://yenicag.ru/azerbaydzhanskie-vokalisty-o-svoem-ku/208649/

**Резюме**

В этой статье рассматривается жизнь и творчество первого контртенора в истории Азербайджанской музыки, заслуженного артиста Ильхама Назарова. Дается краткий обзор многогранной деятельности певца, отмечается важность его творчества в азербайджанском вокальном искусстве.

**Ключевые слова:** Ильхам Назаров, вокальное пение, контртенор, музыкальное искусство.

**Summary**

This article discuses the life and work of the first countertenor in the history of Azerbaijani music, Honored Artist Republic of Azerbaijan Ilham Nazarov. The author gives a brief overview of the singer's multifaceted activity and notes his importance in the Azerbaijani vocal art.

**Key words:** Ilham Nazarov, vocal singing, countertenor, musical art.